**Fiziki şəxslərə təlim xidmətlərin göstərilməsi üzrə müqavilə forması**

# MÜQAVİLƏ № ______

Bakı şəhəri "___" ___________202__-___ il

Bir tərəfdən, Nizamnamə əsasında fəaliyyət göstərən Direktor xxxxxxxxxx oğlu şəxsində (bundan sonra İcraçı adlandırılacaq) **"xxxxxxxxxxxxxxx" Məhdud Məsuliyyətli Cəmiyyəti** digər tərəfdən fiziki şəxs _______________________________ (şəxsiyyət vəsiqəsi FİN:___________) (bundan sonra Sifarişçi adlandırılacaq), birlikdə isə **Tərəflər** adlandırılmaqla aşağıdakılar barədə bu Müqaviləni bağladılar:

## 1. MÜQAVİLƏNİN PREDMETİ

1.1. Bu müqavilə üzrə İcraçı Sifarişçiyə ___________________________________________ kurs üzrə bilik və məlumat verməyi (Bundan əlavə - təlim xidmətləri) Sifarişçi isə öz növbəsində təlim xidmətlərini qəbul edərək müqavilə üzrə müəyyən olunmuş xidmət haqqının ödənilməsini öhdəsinə götürür.
1.2. Dərslər həftədə ____ gün keçirilir, dərslərin müddəti __ saatdır. Təlimin ümumi müddəti _ _ Saat və ya _ _ həftə olacaqdır. Təlimin başlama tarixi : __ ?? _________ 202_ - _ _ il.
1.3. Təlim xidmətləri Sifarişçinin istəklərinə uyğun olaraq Sifarişçinin sualları ilə bağlı məlumat və izahatların yazılı və ya şifahi şəkildə hazırlanmasını və verilməsini əhatə edir.
1.4. İcraçının təlim xidmətləri Sifarişçinin yazılı və şifahi sorğusu əsasında təqdim olunur.
1.5. Sorğuya cavab müddəti 1 (bir) iş günüdür, bu sualın mürəkkəbliyi və onun araşdırılmasının zəruriliyi nəzərə alınmaqla Sifarişçi ilə razılaşdırılaraq uzadıla bilər.
1.6. Sifarişçiyə hazırlanan və təqdim olunan məlumatlar ümumi olsa da, müvafiq proseslərlə əlaqədar verilən tövsiyələr İcraçının peşəkar Subyektiv rəyidir və tövsiyə xarakteri daşıyır.
1.7. İcraçı Sifarişçini müqavilənin 1.1-ci bəndində qeyd olunan təlimin sonunda müvafiq sertifikat ilə təmin edir.
1.8. Təlim xidmətləri İcraçı tərəfindən Ofis rejimində və ya Bakı şəhərində zoom (online) platforması vasitəsilə həyata keçirilir, ______________________________.

## 2. TƏRƏFLƏRİN HÜQUQ VƏ VƏZİFƏLƏRİ

2.1. İcraçının öhdəlikləri:
2.1.1. Sifarişçinin maraqlarını maksimum nəzərə alaraq peşəkar şəkildə təlim xidmətləri göstərmək;
2.1.2. Hazırki müqavilə üzrə öhdəliklərin icrası ilə əlaqədar Sifarişçidən alınan məlumatların tam məxfiliyinə ciddi riayət etmək;
2.1.3. Sifarişçinin tələbi ilə ona hazırki müqavilə üzrə öhdəliklərin icrası barədə hər hansı bir məlumat vermək.
2.2. İcraçı hüquqları:
2.2.1. Sifarişçidən müqavilə ilə müəyyən edilmiş xidmət haqqının vaxtında ödənilməsini tələb etmək.
2.3. Sifarişçinin öhdəlikləri:

2.3.1. İcraçıya razılaşdırılmış müddətdə məsləhət xidmətləri göstərmək üçün lazım olan məlumatları, materialları və sənədləri tam şəkildə təqdim etmək;
2.3.2. Göstərilən xidmətləri qəbul etmək və bu müqavilə ilə müəyyən edilmiş müddətdə və qaydada ödəmək.
2.3.3. Hazırki müqavilə üzrə öhdəliklərin yerinə yetirilməsi ilə əlaqədar İcraçıdan alınan tədris materiallarının və video yazıların yayılmamasına ciddi riayət etmək;
2.4. Sifarişçinin hüquqları:
2.4.1. İcraçıdan bu müqavilə üzrə öhdəliklərin yerinə yetirilməsinin gedişi barədə şifahi və yazılı məlumat almaq;
2.4.2. İcraçıdan bu müqavilə üzrə öhdəliklərin düzgün yerinə yetirilməsini tələb etmək.

## 1. QİYMƏT, HESABLAŞMA VƏ CƏRİMƏLƏRİN TƏTBİQİ QAYDASI

3.1. Bu müqaviləyə əsasən göstərilən təlim xidmətlərinin dəyəri______(____________) Azərbaycan manatı.
3.2. Bu müqavilə ilə Sifarişçi ________________________________ təlimin əvvəlində (və ya qeydiyyat zamanı) göstərilən xidmətin ümumi dəyərinin ən azı 30% - ni ödəmək şərti ilə razılaşır___________, qalan məbləğ isə təlim zamanı ödənilməsini öhdəsinə götürür. Müqavilə üzrə öhdəliklərin Sifarişçi tərəfindən düzgün yerinə yetirilməməsi halında, İcraçının hüquqi var ki, Sifarişçini yeni tədris ayında dərslərdə iştirakına icazə verməsin.
3.3. Müqavilənin tarixindən 14 gün sonra Sifarişçi təlimdən imtina edərsə, 1 aylıq ödəniş məbləği cərimə kimi çıxarılacaq və geri qaytarılmayacaq.
3.4. Bu müqavilə üzrə ödəniş Sifarişçi tərəfindən müqavilə imzalandıqdan sonra İcraçının cari hesabına vəsait köçürməklə və ya nağd şəkildə ödəməklə həyata keçirilir.

## 2. TƏRƏFLƏRİN MƏSULİYYƏTİ

4.1. Tərəflər bu müqavilə üzrə öhdəliklərini tam və ya qismən yerinə yetirmədikdə və ya fikir ayrılıqlarının danışıqlar yolu ilə həlli mümkün olmadıqda Azərbaycan Respublikasının qüvvədə olan qanunvericiliyinə uyğun olaraq məsuliyyət daşıyırlar.
4.2. Sifarişçi tərəfindən natamam və ya etibarsız məlumatların verilməsi və ya Sifarişçi tərəfindən İcraçının qeydlərinin vaxtında nəzərə alınmaması nəticəsində yaranan problemlər və ya səhvlər baş verərsə, İcraçı işinin nəticəsinə görə məsuliyyət daşıya bilməz.
4.3. Sifarişçi xidmətin göstərilməsi ilə əlaqədar bu müqavilə üzrə İcraçı tərəfindən təqdim olunan materialların, sənədlərin və digər məlumatların tamlığı və etibarlılığı üçün məsuliyyət daşıyır.

## 3. MÜBAHİSƏLƏRİN HƏLLİ QAYDASI

5.1. Hazırki müqavilənin icrası zamanı yarana biləcək mübahisələr və fikir ayrılıqları tərəflər arasında danışıqlar yolu ilə həll ediləcəkdir.
5.2. Tərəflər razılaşmadıqda mübahisələr məhkəmə qaydasında Azərbaycan Respublikasının qüvvədə olan qanunvericiliyinə uyğun olaraq həll ediləcəkdir.

## 4. MÜQAVİLƏNİN QÜVVƏDƏ OLMA MÜDDƏTİ

6.1. Bu müqavilə imzalandığı tarixdən qüvvəyə minir və tərəflər bu müqavilə üzrə öhdəliklərini tam yerinə yetirənə qədər qüvvədədir.

6.2. Bu müqavilə tərəflərin razılığı əsasında 15 (on beş) gün əvvəl yazılı bildirişlə ləğv edilə bilər. Ləğv tarixindən əvvəl göstərilən bütün xidmətlər Sifarişçi tərəfindən ödənilir.

## 7. TƏRƏFLƏRİN HÜQUQİ ÜNVANLARI VƏ BANK REKVİZİTLƏRİ

**İcraçı**
"xxxxxxxxxxxxxxx" MMC
VÖEN:
H/H:
Bank:
Kodu:
Bankın VÖEN:
SWIFT kod:
M/H:

**Sifarişçi**
A.S.A______________________________
Ş/V Seriya və № ______________________
FİN:_________________________________
Qeydiyyat ünvanı:
________________________________
________________________________________
Əlaqə nömrəsi**:** _________________________

## 8. TƏRƏFLƏRİN İMZASI

**İcraçı:**
**xxxxxxxxxxxx**

_____________________________
M.Y.

**Sifarişçi:**
Fiziki şəxs________________

İmza/soyad: _____________________